**Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

2001-ci ildə dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi tamam olur. Bu yubileyin dünya miqyasında keçirilməsi barədə YUNESKO qərar qəbul etmişdir.

Elmin astronomiya, həndəsə, triqonometriya, fəlsəfə, ilahiyyat, pedaqogika, mineralogiya, tibb və sair sahələrində sanballı əsərlər yaratmış ensiklopediyaçı alim Nəsirəddin Tusinin yaradıcılığı dünya elminin və mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir.

Nəsirəddin Tusi öz zəngin yaradıcılığı ilə yanaşı böyük bir elmi məktəbin banisi kimi də dünya şöhrəti qazanmışdır. Onun təsis etdiyi Marağa Astronomiya Rəsədxanası qısa müddətdə astronomiya cihazlarına və zəngin kitabxanaya malik böyük elmi mərkəzə çevrilmiş, bir çox məşhur riyaziyyatçı və astronom buraya dəvət edilmiş və onlar Nəsirəddin Tusinin rəhbərliyi altında elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərlər yaratmışlar.

Nəsirəddin Tusi özündən sonra olduqca böyük elmi irs qoyub getmişdir. Onun əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə edilərək dəfələrlə çap olunmuş, neçə-neçə alimlər nəslinin yetişməsində müstəsna rol oynamışdır. Təəssüflə qeyd edilməlidir ki, Nəsirəddin Tusinin çoxsahəli yaradıcılığı ölkəmizdə hələ lazımi səviyyədə tədqiq olunmamışdır. Mütəfəkkir alimin irsinin dərindən öyrənilməsi Azərbaycan elmi qarşısında duran vacib məsələlərdəndir.

Dahi Azərbaycan aliminin xatirəsi ölkəmizdə həmişə böyük ehtiram və iftixarla yad edilmişdir. 1981-ci ildə onun 780 illik yubileyi geniş qeyd olunmuş, adi əbədiləşdirilmiş, şərəfinə medal təsis edilmiş, abidələr yaradılmışdır. Azərbaycan Dövlət Pedaqoji Universiteti və Şamaxı Astrofizika Rəsədxanası da Nəsirəddin Tusinin adını daşıyır.

Azərbaycanın dahi alimi Nəsirəddin Tusinin 800 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi onun xatirəsinə dərin ehtiramın ifadəsi olmaqla yanaşı, xalqımızın zəngin elmi və mədəni irsinin bütün dünyada təbliği və tərənnümü işinə xidmət edir.

Nəsirəddin Tusinin dünya elmi və mədəniyyəti tarixində mühüm yer tutduğunu, onun yubileyinin beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq dahi alim və mütəfəkkirin 800 illik yubileyinin layiqincə qeyd olunması məqsədi ilə **qərara alıram:**

1. Nəsirəddin Tusinin 800 illik yubileyinin hazırlanması və keçirilməsi üzrə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri:**

Heydər **Əliyev** - Azərbaycan Respublikasının Prezidenti

**Dövlət Komissiyası sədrinin müavinləri:**

Elçin **Əfəndiyev** - Azərbaycan Respublikası Baş nazirinin müavini

Fəraməz **Maqsudov** - Azərbaycan Elmlər Akademiyasının prezidenti

**Dövlət Komissiyasının üzvləri:**

Rəfael **Allahverdiyev** - Bakı şəhər İcra Hakimiyyətinin başçısı

Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Vilayət **Quliyev** - Azərbaycan Respublikasının xarici işlər naziri

Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

Sirus **Təbrizli** - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Azad **Mirzəcanzadə** - Dövlət Elm və Texnika Komitəsinin sədri

Nizami **Xudiyev** - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri
Arif **Mehdiyev** - Azərbaycan Milli Aerokosmik Agentliyinin baş direktoru

Oqtay **Mirqasımov** - "Azərkinovideo" İstehsalat Birliyinin sədri

Allahşükür **Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

Nəriman **Quliyev** - Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti

Cəmil **Quliyev** - Azərbaycan Elmlər Akademiyasının İctimai elmlər bölməsinin akademik-katibi

Anar **Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri

Rüstəm **İbrahimbəyov** - Azərbaycan Kinematoqrafçılar ittifaqının sədri

Fərhad **Xəlilov** - Azərbaycan Rəssamlar İttifaqının sədri

Abel **Məhərrəmov** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru

Bəhlul **Ağayev** - N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru

Əhliman **Əmiraslanov** - N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin rektoru

İsa **Həbibbəyli** - Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru

Əyyub **Quliyev** - N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru

Telman **Əliyev** - Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun direktoru

İqrar **Əliyev** - Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru

Budaq **Budaqov** - Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru

Hacıbəy **Sultanov** - Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü

Nailə **Vəlixanlı** - Azərbaycan Tarixi Muzeyinin direktoru

Gövhər **Baxşəliyeva** - Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu direktorunun əvəzi

Məmməd **Adilov** - Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutu direktorunun əvəzi

Ədilə **Namazova** - Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü

Maqsud **Əliyev** - Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü

Məhəmməd **Şaxtaxtinski** - Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü

Abdulla **Muxtarov** - Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü

Rəhim **Sultanov** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin professoru

Rəhim **Hüseynov** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin professoru

Vasim **Məmmədəliyev** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti ilahiyyat fakültəsinin dekanı

Cəfər **Quluzadə** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti Astrofizika kafedrasının müdiri

Fuad **Qasımzadə** - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının müdiri

Zakir **Məmmədov** - Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri

2. Nəsirəddin Tusinin 800 illik yubileyi üzrə Dövlət Komissiyasına müvafiq ştat vahidləri ayrılmaqla üç nəfərdən ibarət işçi qrup yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 iyun 2000-ci il
348

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S.2530-2532.